## CƏNUBİ KOREYA TARİXİNDƏ İLK XANIM PREZİDENT

*Dekabrın 19-da Cənubi Koreyada keçirilən prezident seçkisində hakim "Senuri" Partiyasının (Yeni Sərhədlər Partiyası) namizədi Pak Kın Xen qalib gəlib*



Bu həm də o deməkdir ki, ilk dəfədir Koreyada qadın prezident seçilir.

60 yaşlı Pak Kın Xenin atası general Pak Çon Xi vaxtilə Cənubi Koreyanın prezidenti olub. Onu 1979-cu ildə ölkənin Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri öldürüb.

Pak Kın Xenin rəqibi Birləşmiş Liberal Demokratik Partiyanın namizədi 59 yaşlı Mun Çje İn xanım siyasətçini qələbə münasibəti ilə təbrik edib.

Hazırkı prezident Li Men Bakın səlahiyyət müddəti 2013-cü ilin fevralında bitir.

## AVROPA BİRLİYİ NOBEL MÜKAFATINI UŞAQLARA XƏRCLƏYƏCƏK

*Avropa Birliyinə təqdim olunan Nobel mükafatı müharibə və münaqişələrdən zərər çəkmiş uşaqlara yardım layihəsinin reallaşmasına sərf olunacaq*

Bu barədə Avropa Komissiyasının prezidenti Joze Manuel Barrozu bildirib.O, qeyd edib ki, Nobel Sülh Mükafatı müharibədən əziyyət çəkən uşaqların təhsil və istedadlarının inkişafına sərf ediləcək.

Avropa Birliyi öz vəsaitlərindən Suriya, Ekvador, Efiopiya və Pakistandan 23 min uşağa yardım məqsədilə 2 milyon avro ayırıb.

Xatırladaq ki, Nobel mükafatının məbləği 930 min avrodur.

## "WİKİLEAKS"IN YARADICISI 2013-CÜ İLDƏ 1 MİLYON YENİ MƏXFİ SƏNƏDLƏRİ DƏRC EDƏCƏYİNİ BİLDİRİB

*"Wikileaks"ın yaradıcısı Culian Assanj ona sığınacaq vermiş Ekvadorun Londondakı səfirliyinin balkonundan tərəfdarları qarşısında çıxış edib*



Assanj ona 6 aydır siyasi sığınacaq vermiş Ekvador səfirliyinə və ona dəstək olan britaniyalılara təşəkkür edib.

Assanj ABŞ hökumətini, Pentaqonu Wikileakslə qarşı əsassız ittihamlardan əl çəkməyə çağırıb.

BMT

## BMT-DƏN QORXULU HESABAT

*Şimal qütbündə buzlaqların 18 faizi əriyib!*

Dünya okeanında su səviyyəsi proqnozlaşdırılandan daha sürətlə yüksəlir. Lent.az-ın "mig-news.com" saytına istinadən verdiyi məlumata görə, BMT-nin proqnozlarından fərqli olaraq, dünyada sahil zonalarında yaşayan insanlar çox tezliklə subasma təhlükəsi ilə üzləşəcəklər.

Bu, BMT-nin iqlim dəyişikliyinə qarşı mübarizə ilə bağlı Qətərdə keçirilən konfransında açıqlanıb. BMT-nin tövsiyəsi ilə Almaniyanın Potsdam İnstitutunun alimlərinin peyk məlumatlarına istinadən apardıqları tədqiqat nəticəsində məlum olub ki, son 20 ildə dünya okeanında suyun səviyyəsi hər il orta hesabla 3,2 mm yüksəlib. Bu artım tempi BMT ekspertlərinin proqnozlarındakı artım tempindən 60 faiz çoxdur.

Dünyada orta temperatur isə BMT-nin proqnozlaşdırdığı kimi artır. Bununla belə, buzlaqların sürətlə əriməsi sahil zonalarının batma təhlükəsinin artıq qaçılmaz olduğunu ortaya qoyur. Peyk müşahidələri son vaxtlar Arktikada görünməmiş səviyyədə buzlaqların əridiyini göstərir. Məsələn, 2007-ci illə müqayisədə Şimal qütbündə buzlaqların həcmi 18 faiz azalıb. Ümumdünya Meteorologiya Təşkilatının sədri Mişel Jarro bu tendensiyanı atmosferə istilikxana qazlarının atılmasının davam etməsi ilə əlaqələndirib.

## YAZIÇI NAOKİ İNOSE TOKİO QUBERNATORUDUR

*Tokio qubernatorunun sabiq müavini Naoki İnose dekabrın 16-da keçirilmiş Yaponiya paytaxtının qubernatoru seçkilərində inamlı qələbə qazanmışdır*



Altmış altı yaşlı yazıçı N.İnose 2007-ci ildə Tokio qubernatorunun müavini təyin edilmişdir. O, əsasən Tokio metropoliteni sisteminin operatorları olan iki şirkətin birləşməsi və "Tokyo electric power Co." elektrik şirkətinin idarə edilməsində islahatların aparılması istiqamətində fəaliyyət göstərmişdir.

N.İnose öz namizədliyini Tokionun keçmiş qubernatoru Sintaro İsihara parlamentin aşağı palatasına deputat seçilmək üçün oktyabrda istefa verdikdən və onu öz yerinə varis elan etdikdən sonra irəli sürmüşdü.

Seçkiqabağı kampaniya zamanı N.İnose bildirmişdir ki, o, S.İsiharanın siyasətini davam etdirəcək, Tokionun 2020-ci il Yay Olimpiya Oyunlarına ev sahibliyini qazanmasına çalışacaq və paytaxtın güclü zəlzələlərə qarşı hazır olması istiqamətində tədbirləri həyata keçirəcəkdir.

## DÜNYA HƏLƏ BU QƏDƏR ÇİRKLƏNMƏMİŞDİR

*Ölçüldüyü vaxtdan bu günə qədər atmosfer çirklənməsi rekord həddə çatmışdır*

Bu barədə Almaniyanın bərpa olunan enerji institutunun alimləri bəyan etmişlər.

Alimlərin hesablamalarına görə, 2011-ci ildə atmosfer tullantılarının həcmi ondan əvvəlki ilə nisbətən 2,5 faiz artıq olmuşdur.

İndi atmosferə buraxılan dəm qazının həcmi 1990-cı ildəki həcmdən iki dəfə çoxdur. Çirklənmənin çox hissəsi Çinin payına düşür. Bu ölkədə atmosferi ABŞ-dan iki dəfə çox çirkləndirirlər.

## DEVRİLƏN PREZİDENTİN VARİDATI SATILIR

*Tunisin devrilmiş prezidenti Heynəl Abidin Bin əli ilə arvadı Leyla bin Əli, habelə onların yaxın qohumlarının zinət əşyaları, aksesuarları, bəzəkləri və s. hərraca çıxarılıb*



Hərraca çıxarılaraq satılacaq əşyalar arasında ən ucuzu 3 min avro olan qadın paltarları, "Cadillac"dan tutmuş "Mercedes"ə qədər 39 lüks maşın, mebel, qiymətli xalılar, qızıl heykəllər və s. var.

Həmin əşyalar arasında 55 yaşlı Leyla bin Əlinin paltarları, lüks zinət əşyaları, məşhur brendlərin məhsulları olan çantalar, çox bahalı ayaqqabılar da var.

## YUNANISTANDA "PULLU ADAMLARIN SİYAHISI" QALMAQALI

*Yunan maliyyə müfəttişləri İsveçrədə bank hesabı olan vətəndaşların maliyyə işlərini yoxlamağa qərar vermişdir.*

BBC kanalının məlumatına görə, prokurorluğun əməkdaşları siyahını əldə etmək üçün İsveçrəyə ezam olunmuşlar. Mübahisəli siyahıda "HSBS" bankının İsveçrə filialında vəsaitləri olan 2 min yunanın adı olduğu qeyd edilir. Bu siyahını 2009-cu ilin yanvarında Fransa polisi bankın əməkdaşlarının birinin evindən götürmüşdür. O zaman Fransanın maliyyə naziri Kristin Laqard bu siyahını Afinaya təqdim etsə də, heç bir tədbir görməmişdir. Prokurorluq bu siyahının qanunsuz yolla əldə edildiyini əsas gətirmişdir. Lakin 3 ay əvvəl siyahı yunan mediasında yayıldıqdan sonra məsələ ölkədə ciddi müzakirə mövzusuna çevrilmişdir.Siyahıda Yunanıstanın Fransada əmlakı olan siyasi xadimlərinin də adı var-dır.Onlar Fransada yaşasalar da, vergidən yayınaraq pullarını İsveçrə banklarında saxlayırlar.



## MÜBARƏKİN XANIMININ 5 MİLYONU DÖVLƏT HESABINA KÖÇÜRÜLÜB

*Misirin baş prokuroru Tələət Abdulla keçmiş prezident Hüsnü Mübarəkin xanımı Süzan Sabitin hesabındakı 5,2 milyon dolların Mərkəzi Bankın hesabına köçürülməsinə dair göstəriş verib*



Lent.az-ın «RİA-Novosti»-yə istinadən məlumatına görə, keçmiş prezidentin xanımının adına «əl-Əhli-Sosiety Jeneral» bankında gizli hesab açılıbmış. Bu haqda nə əvvəl, nə də sonradan hakimiyyətə məlumat verilməyib. Həmin hesaba illər uzunu könüllü şəkildə pul köçürülürmüş.

2011-ci ilin yazındakı inqilabdan sonra Hüsnü Mübarəkin və ailəsinin adına olan bütün əmlak dövlətin xeyrinə müsadirə edilib. Onda Süzan Sabit məhkəmə araşdırmasının aparılmayacağı qarşılığında könüllü şəkildə adına olan bütün mal-mülkdən imtina etmişdi.

## HÜSNÜ MÜBARƏKİN OĞLANLARININ HESABLARI DONDURULDU

*İsveçrə hökuməti ötən il dekabrın 31-də Misirin keçmiş prezidenti Hüsnü Mübarəkin oğlanlarının Credit Suisse maliyyə qurumunda olan 227 milyon avroluq (300 milyon dollar) hesablarını dondurub*

Söhbət hazırda Misirdə həbsxanada olan Əli və Camal Mübarəklərin hesablarından gedir. Qardaşlar atalarının yüksək vəzifəli mövqeyindən istifadə edərək gəlir və sərvət əldə etməkdə günahlandırılırlar. «Matin Dimanche» qəzetinin məlumatına görə, qardaşlar Credit Suisse bankında 2005-ci ildə çoxmilyonluq hesablar açıblar. Qəzet Fransanın BNP Paribas bankının İsveçrə şöbəsində eks-prezident Mübarəkin yaxın adamlarının hesablarının dondurulduğunu yazıb.

## SİNZO ABE YAPONİYANIN YENİ BAŞ NAZİRİ SEÇİLMİŞDİR

*Liberal-Demokartik Partiyasının (LDP) 58 yaşlı sədri Sinzo Abe dekabrın 26-da Yaponiyanın yeni Baş naziri seçilmişdir*



Onun namizədliyi parlamentin aşağı palatasının 480 deputatının 328-i tərəfindən dəstəklənmişdir. LDP Yaponiya parlamentinin aşağı palatasına son seçkilərdə inamlı qələbə qazanmışdı.

2006-2007-ci illərdə həmin vəzifədə olmuş Sinzo Abe son altı ildə Yaponiyanın yeddinci Baş naziri seçilmişdir. LDP ötən əsrin ortalarından başlayaraq, demək olar ki, fasiləsiz olaraq Yaponiyanı idarə etmişdir. Yalnız üç il bundan əvvəl o, hakimiyyəti Demokratik Partiyaya güzəştə getməli olmuş və bu ay keçirilmiş seçkilərdə inamlı qələbə qazanmışdır.

Sinzo Abe nəsillikcə konservator siyasətçi kimi xarakterizə olunur. Onun LDP-nin yaradıcılarından biri sayılan babası Nobusuke Kisi 1957-ci ildən 1960-cı ilədək hökumətə başçılıq etmişdir. Atası Sintaro Abe isə 1980-ci illərdə Yaponiyanın xarici işlər naziri olmuşdur.

Yeni Baş nazir Sinzo Abe dekabrın 26-da özünün kabinetini də formalaşdırmışdır.

## DÖVLƏTİN ADINI DƏYİŞDİRDİLƏR

*Liviya Milli Konqresi (parlament) ölkənin adındakı “Böyük Cəmahiriyyə” sözündən imtina barədə qərarı təsdiqləyib*

APA-nın “RİA Novosti”yə istinadən verdiyi məlumata görə, yeni Konstitusiya qəbul olunana qədər ölkə Liviya dövləti adlanacaq. Xatırladaq ki, Liviya Müəmmər Qəddafinin vaxtında “Böyük Cəmahiriyyə” adlanırdı.

**BİR QADIN NAZİR VARDI, O DA GETDİ**

*İranın yeganə qadın naziri istefaya göndərildi*



Anspress xəbər verir ki, İran İslam Respublikasının yeganə qadın naziri Mərziyə Vahid Dəstcerdi tutduğu vəzifədən kənarlaşdırılıb. Bu barədə məlumatı yayan İran dövlət televiziyası ölkə prezidenti Mahmud Əhmədinejadın səhiyyə naziri Dəstcerdininin işinə son verdiyini bildirib.

Xatırladaq ki, ötən həftə dərman üçün ayrılan vəsaitin az olduğunu deyən səhiyyə naziri Mərziyə Vahid Dəstcerdi ev heyvanlarının yemi üçün büdcə ayıran İran Mərkəzi Bankını tənqid etmişdi.

**MAHMUD ABBAS FƏLƏSTİN MİLLİ MUXTARİYYƏTİNİ DÖVLƏT ELAN EDİB**

*Yanvarın 6-da Mahmud Abbas Fələstin Milli Muxtariyyətini rəsmi "Fələstin dövləti" adlandırılması barədə fərman imzalayıb*



APA-nın "The Jerusalem Post"a istinadən verdiyi xəbərə görə, beləliklə, Fələstin milli administrasiyası 2012-ci ilin noyabrında BMT Baş Assambleyasında muxtariyyətin müşahidəçi dövlət qismində tanınmasının reallaşmasına başlayıb.

Bundan başqa, fərmanda bütün rəsmi möhürlərdə, medallarda, sənədlərdə, sertifikatlarda, müqavilələrdə, dərsliklərdə, coğrafi xəritələrdə və digər nəşrlərdə ölkənin köhnə adının dəyişdirilərək "Fələstin dövləti" adlandırmaq tapşırığı verilib.

**TACİKİSTAN DÜNYA TİCARƏT TƏŞKİLATININ ÜZVÜ OLMUŞDUR**

*Orta Asiya regionunda Tacikistan Qırğızıstandan sonra bu təşkilatın üzvü olan ikinci ölkədir*



Tacikistan Prezidenti Emoməli Rəhmon jurnalistlərə demişdir ki, Tacikistanın DTT-ya üzv olması ölkənin bazar iqtisadiyyatına keçməsi istiqamətində mühüm bir addımdır. Bu, ölkənin sosial-iqtisadi inkişafının dirçəldilməsinə mühüm töhfəsini verəcəkdir. Dövlət başçısı əmin olduğunu bildirmişdir ki, Tacikistan bu imkandan səmərəli istifadə edərək ölkə əhalisinin rifah halının yüksəldilməsi istiqamətində mühüm addımlar atacaqdır. Tacikistan bu təşkilata üzv qəbul olunarkən üzərinə götürdüyü bütün öhdəliklərə əməl edəcəkdir.